


**Ana təbiət, əkinəyararlı torpaqlar otuz il vəhşi qəbilənin hücumlarına, təcavüzünə məruz qalsa da yaralarını sararaq yenidən dirçəlir, torpağa toxum səpilir, ağac əkilir, bağ salınır, məhsul yetişdirilir, fermer təsərrüfatları və aqroparklar yaradılır. Zirvəsi buludlardan su içən dağların qaşqabağı açılıb, binələri çadır-çadır olan yaylaqların çal-çağır dövrü yenidən başlayıb, naxır və qoyun sürüləri irəmələrə yayılır. Kəklikotu, qırxbuğum, qaymaqçiçəyi, baldırğan, qantəpər ətirli dərələr, düzlər öz ahənginə qayıdır. Çobanların səsinə, qoyun-quzu mələşməsinə, tütək səsinə, ocaq tüstüsünə, şirin söz-söhbətə həsrət qalan, darıxan dağlar, yaylaqlar dörd ildir ki, çal-çağıra bürünüb. Keçmiş məcburi köçkünlər öz ata-baba yurdlarına qovuşurlar. Sevinclə, şükranlıqla, təzə-tər arzularla, yaşamaq eşqi, torpaqları laləzara çevirmək həvəsi ilə, minnətdarlıqla qayıdırlar. Həm də işğaldan azad edilən torpaqlarda tarla işlərinin aparılması, torpağa düşən hər toxum dənəsi, hər əkilən ağac gələcək ümidləri qat-qat artırır, öz sahiblərinə qovuşan torpaqlar, sözün əsl mənasında, cana gəlir.**

# Dayanıqlı kənd təsərrüfatı: polikultura və "yaşıl inqilab"

## *Prezident İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur*

Dörd il əvvəl mərmilərin partladığı, qanlı döyüşlərin getdiyi torpaqlarda indi traktorların səsi eşidilir, minalardan təmizlənən əkinəyararlı ərazilər şumlanır, malalanır, arata qoyulur və minbir həvəslə ora toxum səpilir. Qarabağın və Şərqi Zəngəzurun havası təmiz, suyu saf, torpaqları münbit, bərəkətli və məhsuldardır. Ən əsası isə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı yeni iqtisadi rayonların yaradılması haqqında Fərman Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı təsərrüfat işlərinin yerinə yetirilməsi üçün hüquqi baza yaratdı. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə bölgənin inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlər vahid proqram əsasında aparılır. Müharibədən dərhal sonra Qalib Ali Baş Komandan, Prezident İlham Əliyev Qarabağda və Şərqi Zəngəzurda aparılacaq işlərin yol xəritəsini elan etdi.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan bölgələr əlverişli hava şəraitinə, suvarma suyunun bol olmasına, münbit torpaqlarına görə kənd təsərrüfatı bitkilərinin, o cümlədən taxılçılığın inkişaf etdirilməsi üçün böyük potensiala malikdir. İşğaldan azad edilən ərazilərdə minalardan təmizlənən torpaq sahələrində əkinçilik işlərinə başlanılıb, həm də bu ərazilərdə, ilk növbədə, taxıl, xüsusilə buğda səpini aparılır. Azad edilmiş ərazilərdə təxminən 100 min hektar torpağın əkin dövriyyəsinə cəlb edilməsi və taxıl məhsullarının yetişdirilməsi istiqamətində hədəflər müəyyən edilib. Bu da gələcəkdə ölkəmizin bu sahədə xaricdən asılılığını azaldacaqdı. Ölkə başçısı İlham Əliyev deyib ki, Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var - subsidiyalar verilir, fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Texnikalar alınır, güzəştli şərtlərlə kreditlər verilir. Hazırda kənd təsərrüfatında böyük islahatlar aparılır, subsidiyaların verilməsi mexanizmi təkmilləşir, fermerlər üçün daha aydın, daha rahat mexanizm tətbiq olunur. Azərbaycan həm də aqrar respublikadır, vaxtilə və hazırda aparılan islahatlar nəticəsində iqtisadiyyatı, o cümlədən kənd təsərrüfatı tənəzzülə uğrayan ölkə indi xarici bazarlara orqanik məhsul göndərir, kənd əməkçilərinin zəhməti, alın təri ilə ərsəyə gətirilən məhsullar süfrələrimizi bəzəyir. Ən yaxın tarixə nəzər salaq. Ötən əsrin 90-cı illərində Azərbaycanda keçirilmiş torpaq islahatı, özəlləşdirmə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider kənd təsərrüfatının necə böyük əhəmiyyət daşıdığını yaxşı bilirdi və vaxtilə aparılan islahatlar bu gün ölkəmizi ixracatçıya çevirib. Faktlara diqqət yetirək: 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycandan xarici ölkələrə 540 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı və emal məhsulları ixrac olunub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çoxdur. Kənd təsərrüfatı məhsullarının ixrac həcminin 8,5 faiz artması ixrac dinamikasının növbəti aylarda da davam edəcəyi şübhəsizdir. Dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi sayəsində ölkədə məhsuldarlıq yüksəlir, istehsal göstəriciləri artır. Rəsmi rəqəmlər də bunu göstərir. Bu ilin yanvar-iyun aylarında ötən ilin ötən 7 ayı ilə müqayisədə bir sıra əsas kənd təsərrüfatı məhsulları üzrə istehsal göstəriciləri əhəmiyyətli dərəcədə çoxalıb. O cümlədən diri çəkidə ət istehsalı 1,3 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz, şəkər çuğunduru istehsalı 2,4 dəfə, meyvə və giləmeyvə istehsalı 5,1 faiz, bostan məhsullarının istehsalı 10,3 faiz, tərəvəz məhsullarının istehsalı 0,2 faiz artıb.

İşğaldan azad edilən ərazilərdə əkinçilik və heyvandarlıq sürətlə bərpa edilir. Bölgədə kənd təsərrüfatının yenidən qurulmasına və inkişaf etdirilməsinə başlanılıb, aqroparklar, iqtisadi zonalar yaradılır, heyvandarlıq kompleksləri tikilir, aqrar sahəyə aid müvafiq infrastruktur qurulur. Süfrələrə bolluq, bərəkət bəxş edən əkinçilərin zəhməti tarladan süfrələrə gələn məhsulda öz əksini tapır. Ömrünü, gününü torpağa bağlayan, zəhməti, alın təri ilə məhsul yetişdirən adamlar, sözün həqiqi mənasında, cəmiyyətin, hər bir bölgənin, hər bir kəndin, hər ailənin əsl sərvətidir. Məhz buna görə də aqrar sahə əhalinin ərzaq təhlükəsizliyinin təminatında böyük rol oynayır və həm də əhalinin ən böyük məşğulluğu burada cəmlənir. Ölkədə ailə üzvləri də nəzərə alınmaqla təxminən 1,5 milyon insan öz dolanışığını, maddi təminatını kənd təsərrüfatında çalışaraq təmin edir. Bu o deməkdir ki, bu əlamətdar gün Azərbaycanda həm də təxminən milyon yarım insanın peşə bayramıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan torpaqlarımızda kənd təsərrüfatının bərpası üçün ilkin işlərə başlanılıb. Torpaqlarımızın azad edilməsi kənd təsərrüfatının inkişafına müsbət təsir göstərir. Ölkənin əkin dövriyyəsi artır, azad olunmuş ərazilərdəki strateji əhəmiyyətli su anbarları yüz min hektarlarla sahənin suvarılmasını təmin edir. Bu torpaqlarda üzümçülük, taxılçılıq, pambıqçılıq və heyvandarlığın inkişafı üçün çox böyük potensial var. Bu potensialdan düzgün istifadə etməklə, eyni zamanda aqrar emal sənayesini genişləndirməklə kənd təsərrüfatının davamlı inkişafı təmin olunur.

Kənd təsərrüfatının inkişafına yönəlmiş daha bir mühüm addım aqrar sığorta sisteminin tətbiqidir. Aqrar Sığorta Fondunun yaradılması ilə əlaqədar dünyadakı mövcud aqrar sığorta modelləri araşdırılıb, mütərəqqi kənd təsərrüfatı sığorta sistemi olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin bu sahədə təcrübəsi öyrənilib. Mütəxəssislərin hesablamalarına əsasən düşməndən azad edilən torpaqlarda 155 min hektar ərazi ümumi kənd təsərrüfatı dövriyyəsinə cəlb olunacaq. Bu isə o deməkdir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında heyvandarlıq, həmçinin bitkiçilik üzrə indiki kənd təsərrüfatı həcminin 8 faizi nisbətində ümumi məhsul istehsalı qeydə alınacaq. Başqa sözlə, bu bölgədə 45 min ton ət, 200 min tondan çox süd istehsalına real şərait yaranır. Təkcə Ağdam və Füzuli rayonlarının işğaldan azad edilən ərazilərində 180 min tondan çox taxıl istehsal ediləcək, digər kənd təsərrüfatı bitkilərinin əkinləri də genişləndiriləcək.

Qarabağ iqtisadi bölgəsinə daxil olan Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində yeni aqrar islahatların aparılması və innovativ texnologiyaların tətbiqi ilə ümidverici nəticələr əldə etmək mümkün olacaq. Tədqiqatlar nəticəsində proqnoz inkişaf dövrü hesab edilən 2025-ci ilə qədər Ağdam rayonunda taxıl istehsalının 86,6 min tona çatdırılması gözlənilir. Çünki rayonda torpaqlar çox münbitdir və Ağdam Azərbaycanın ən günəşli bölgəsi hesab olunur. Əkinçiliyin məhsuldarlığı bir də su mənbələrindən asılıdır. Rayonun bir hissəsi Suqovuşan su anbarından gələn suyun hesabına suvarılır. Əsas su mənbəyi isə təxminən 23 milyon kubmetrlik iritutumlu Xaçınçay su anbarıdır. Bu mövsümdə havaların yağıntılı keçməsi nəticəsində Xaçınçay su anbarına nəzərdə tutulduğundan artıq su yığılıb. Anbardakı su atan qurğu vasitəsilə artıq su mövcud kanallara buraxılır və rayonun aşağı hissəsində əkinçilər bol sudan istifadə edirlər. Bundan başqa, Ağdamda 200 müasir fermer təsərrüfatı yaradılması nəzərdə tutulub. Dövlət torpaqlarının qalan hissəsində 50-100 hektar sahədə 50 müasir təsərrüfat yaradılacaq.

Yeri gəlmişkən, artıq Ağdamda iqtisadi aktivlik nəzərə çarpır. İşğaldan azad edilən ərazilərdə ilk iri müəssisələr əkin sahələrinin boş qalmaması üçün səpin işləri aparır və məhsul istehsal edilir. Əhalinin sayına görə Füzuli Ağdamdan sonra ikinci ən böyük rayondur. Ərazi baxımından Qarabağ iqtisadi rayonunun tərkibinə daxildir. Rayon əhalisi əsasən kənd yerlərində məskunlaşıb və əsas məşğuliyyəti isə kənd təsərrüfatı işləridir. Ən çox suvarılan torpaqlar Ağdamdan sonra Füzuli rayonundadır. Rayonun ərazisi əsasən Araz, Köndələnçay, Şapartı, Quruçay və Qozluçay çayları ilə suvarılır. Lakin bununla belə, əkin dövriyyəsinə cəlb edilən azad ərazilərin suvarılması üçün yeni potensial da yaranıb. Belə ki, Köndələnçay su anbarlarının işğaldan azad edilən ərazilərdə əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi nəticəsində rayonda kənd təsərrüfatının inkişafına çox yüksək töhfə verir. Ötən il mayın 10-da Prezident İlham Əliyev Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak edib. Rayonda 1980-ci ilin əkin sahələrinin strukturuna nəzər saldıqda taxıl sahələrinin (77,4 faiz) daha geniş əraziləri əhatə edib. Göründüyü kimi, işğaldan öncəki dövr ərzində (1980-1988) rayonda taxıl istehsalında 2.2 dəfəyədək artım müşahidə olunub. Daha doğrusu, 1980-1988-ci illər ərzində Füzuli rayonunda taxıl istehsalı ölkə üzrə istehsalın 2,3 faizini təşkil edib. Bu il rayonda 118.1 min ton taxıl istehsal olunub. Taxıl istehsalında Füzuli rayonu potensial imkanlara malikdir.

Mütəxəssislər hesab edirlər ki, işğaldan azad edilmiş ərazilərdə texnoloji yeniliklər əsasında "Ağıllı kənd təsərrüfatı" konsepsiyasının reallaşdırılması mövcud əkinçilik sistemlərinin struktur zəifliyini aradan qaldırmağa, məhsuldarlığı artırmağa, xərcləri optimallaşdırmağa, rəqabətçi və davamlı nəticələr əldə etməyə imkan verəcək. Əlbəttə, bu da gələcəkdə ölkəmizdə ərzaq təhlükəsizliyinə böyük töhfə olacaq. İndi əsas məqsəd həmin ərazilərdəki digər kənd təsərrüfatına yararlı torpaqları minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal, ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaqdır. Qarabağda və Şərqi Zəngəzurda kənd təsərrüfatında investisiya imkanları daha geniş və cəlbedicidir. Bütün bölgələrdə davamlı inkişafı təmin edən Dövlət proqramlarının həyata keçirilməsi, aqrar sahənin dirçəldilməsinə dövlət dəstəyinin göstərilməsi, qeyri-neft sahələrinə aid iri layihələrin uğurla tətbiq edilməsi, sənaye parklarının yaradılması ölkəmizi bütün təhlükələrdən sığortalayır. Azərbaycanda əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Dövlətimizin başçısı İlham Əliyevin 2022-ci il iyulun 19-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə güclü təkan verəcək. Mühüm dövlət sənədində qeyd olunur ki, ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində işğal altında qalan torpaqların işğaldan azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini daha da yüksəldəcək.

Hazırda Dövlət Toxum Fondunun tabeliyində 5 toxum emalı zavodu fəaliyyət göstərir ki, onlardan biri də Ağcabədi rayonundadır. Zavodun emal gücü saatda 5 tondur. Zavodda quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını 98,5 faiz təmizləmək mümkündür. Məhz bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır.

Onu da qeyd edək ki, bu il işğaldan azad edilmiş ərazilərdə 100 min hektara yaxın sahədən taxıl biçilib və payızlıq taxıl əkini aparılıb. İşğaldan azad edilən ərazilərdə yeni toxum növlərinin və yeni texnologiyaların tətbiqi ilə ərzaqlıq buğdanın yetişdirilməsi üçün böyük potensial var. Ölkəmizdə ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə hazırda 32 rayon üzrə 240 min hektar ərazidə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq, 2-i isə emal sənayesi üzrə ixtisaslaşıb. Artıq 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. 2021-ci ildə aqroparklarda 138 min ton buğda, 68 min ton arpa, 94 min ton qarğıdalı və digər kənd təsərrüfatı məhsulları istehsal olunub. Zəngilan rayonunda təməli Azərbaycan və Türkiyə prezidentləri tərəfindən qoyulan "Dost Aqropark"ı qida təhlükəsizliyinə mühüm töhfə verir. Üç mərhələdə gerçəkləşdiriləcək bu mühüm layihə uğurla icra olunur. Türk və azərbaycanlı sərmayədarlar tərəfindən icra olunan "Dost Aqropark"ın kompleksindəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər kənd təsərrüfatı işləri həyata keçirilir. Bu aqropark Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə yaxşı töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradır. Layihə başa çatdıqda 6 min hektar sahədə bitkiçilik, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri də işə salınır. "Dost Aqropark"ında bütün bölgəni əhatə edən ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarları inşa edilir. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Bundan başqa, "Dost Aqropark"da "ağıllı kənd" təsərrüfatı texnologiyalarına, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan xidmətlər də fəaliyyət göstərir. Artıq "Made in Azerbaijan" brendi ilə məhsullar satışa çıxarılır. Göründüyü kimi, Qarabağda və Şərqi Zəngəzurda aqrar sahənin inkişaf etdirilməsi üçün planlı şəkildə və qabaqcıl texnologiyalar əsasında çox böyük işlər həyata keçirilir.



Bir neçə ildir respublikamızda "Aqropark" inkişaf konsepsiyası həyata keçirilir. Bu konsepsiya ölkənin ixrac potensialının artırılmasında və coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermerlərin innovativ qabiliyyətinin artırılmasında geniş imkanlara yol açır. Eyni zamanda bu konsepsiya kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı, emalçı və istehlakçı arasında münasibətlərinin formalaşmasında, yüksək məhsuldarlığın əldə olunmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq.

Qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə yaradılan təsərrüfatlardan biri də "Ağcabədi taxıl Aqropark"dır. Hələ bir neçə il bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyev qeyri-neft sektorunun inkişafında aqroparkların fəaliyyətinin mühüm yer tutduğunu bildirərək deyib ki, bu əlbəttə, Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatların tərkib hissəsidir. Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir. Təbii ki, eyni zamanda, kiçik fermer təsərrüfatlarının inkişafı ilə bağlı praktiki işlər də görülür. Bu iki istiqamət üzrə kənd təsərrüfatı inkişaf edir. Aqroparkların üstünlüyü ondan ibarətdir ki, burada daha bol məhsul yetişdirilir və məhsuldarlıq da daha yüksəkdir. Bu, təbiidir, çünki burada ən müasir aqrotexniki tədbirlər tətbiq olunur. 2018-ci ildə yaradılan müasir əkinçilik və bağçılıq təsərrüfatının ərazisi üç min hektardır. Aqroparkda sudan səmərəli istifadə etmək üçün ABŞ-dan gətirilmiş 26 ədəd pivot suvarma sistemləri qurulub. Təsərrüfatın 1580 hektar sahəsi artıq pivotlaşdırılıb. Bundan başqa, iki il əvvəl 110 hektar sahədə badam bağı salınıb. Damcı suvarma sistemi ilə təchiz olunan bağdan bu il ilk məhsul əldə olunub. Aqroparkın ərazisində, həmçinin 120 hektarın suvarılması üçün yağmurlama sistemi qurulub. Bu da imkan verir ki, təsərrüfatda ildə iki dəfə məhsul istehsal edilsin. Arpa, buğda əkinlərindən sonra ikinci məhsul üçün 1200 hektardan çox sahədə qarğıdalı əkilir. Dünyanın ən qabaqcıl texnologiyaları bu aqroparkda tətbiq olunub. Belə ki, artıq emal sahəsində İsrail texnologiyası ilə yüksəkkeyfiyyətli qaba yem istehsal olunur. Həmin məhsul İsrail və İtaliya istehsalı olan avadanlıqlarla 40 kiloqramlıq və bir tona yaxın olmaqla qablaşdırılır. Rayonun iqtisadi həyatında mühüm yer tutan aqroparkın 30 min ton arpa, buğda və qarğıdalı saxlamaq üçün saxlanc anbarı var. Sahəsi 5 min kvadratmetr olan anbarda isə təsərrüfata lazım olan dərman və avadanlıqlar saxlanılır. Bütün ölkə üzrə aqroparklarda çalışanların sayı yeddi min nəfəri ötüb. Aqroparklar həm də kəndlərdə yaşayan insanlar üçün daimi iş yerləridir. Müasir əkinçilik və bağçılıq təsərrüfatı olan "Ağcabədi taxıl Aqropark"ı ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsinə, ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. Əkinçilikdə "yaşıl inqilab" (müasir aqrotexniki qaydalardan istifadə ilə bağlı məhsuldarlığın artması), heyvandarlıqda sənaye texnologiyası geniş vüsət alır. Aqroparklarda polikultura tətbiq edilir. Eyni məkanda bir çox məhsullar yetişdirən bu üsul torpaqdan istifadəni maksimum dərəcədə artırır, zərərvericilərlə bağlı problemləri azaldır və balanslaşdırılmış ekosistemi təşviq edir. Məsələn, lobya, qarğıdalı və balqabağı birlikdə yetişdirmək faydalıdır. Lobya torpaqda azotu sabitləşdirir, qarğıdalı paxlanın yetişməsini təmin edir və balqabaq alaq otlarını azaldan torpaq örtüyü kimi çıxış edir. Bir sözlə, ölkəmizdə kənd təsərrüfatı yeni inkişaf mərhələsinə qədəm qoyub, texnologiyalar əsrinin gətirdiyi yeniliklərdən fermerlər və sahibkarlar geniş istifadə edirlər.

**Salman ALIOĞLU,**
**"Respublika".**